

# HÜSEYN CAVİDİN TÜRKİYƏ DÖVRÜ

Cavid təkbaşına böyük bir dövrün ədəbiyyat, fəlsəfə (və siyasət) problemləri ilə məşğuldu. Eyni zamanda o, Allaha asi çıxmış quruluşa, türkə qənim kəsilmiş ictimai-siyasi məkana Quran və Turan düşüncəsinə söykənərək qədəm basırdı" (Azərbaycan, N10, 2006.Türk ruhşünaslığının əsəri, A. Turan).

Türkə qənim kəsilmiş ictimai-siyasi məkana və bu məkanda yaranan ədəbiyyata "Quran və Turan düşüncəsi ilə qədəm basan" Cavid ən böyük türkçü, turançı idi və onun turançı, türkçü kimi formalaşmasında isə onun təhsil aldığı İstanbul mühitinin çox böyük təsiri olmuşdur. Belə ki, Cavid həyatının dörd ilini (1904-1909) İstanbulda keçirmişdir. Bu o dövr idi ki, İstanbul Türkiyənin paytaxtı idi, ictimai-siyasi və mədəni cəhətdən də ölkənin ən əhəmiyyətli şəhərlərindən biri sayılırdı. O zamankı İstanbulu Cavid Qurbanəli Şərifzadəyə yazdığı məktubunda belə təsvir edirdi "İstanbulda var dörd tramvay yolu ki, hər birində 24-ə qədər vaqon olur; və qarşıda körpünün o biri tərəfində daha bir tünel yolu vardır ki, on dəqiqəyə qədər yenişdən yöxuşa qalxır... İstanbulda çöx böyük qiraətxana və kütübxanələr var, amma layiqlərincə kitabları və qəzetləri yoxdur, çünki hər bir eyi mündəriciat və mətbuat yasaqdır. Belə anlaşılır ki, dörd-beş sənə bundan əqdəm Türkiyədə hürr əsərlər var imiş və camaata da belə dəhşətli sürətdə sıqı tutulmazmış, ələlxüsus Kütüpxaniyi Ümumiyi Osamaniyənin bir tərəfində 7-8 sandığa kimi kitab vardır ki, beş sənə bundan əqdəm yasaq və məmnun deyilmiş, amma indi yasaq olmuş...

İstanbulda mütəəddid və gunagun teatrolar var; ələlxüsus rəmazanda büsbütün kəsəbə və çox əsnafun dükanları gecələr açiq olub, məfhum olduğuna görə teatrolar daha ziyadələrdir və türklərdə o gecələrdə teatroya getməyə artıcaq talip və rağib olurlar. Qarşıda ki, körpünün o biri tərəfidir və səkənəsinində çoxusu əcnəbi olduğundan içkiyə əcnəbilərə məmaniət yox, amma müsəlmalara həp yasaqdır, kimsə ələzzahir içki içməz...

Ünaz firqəlsi büsbütün xanımlar üzü açıq və hürrdülər, amma namünasib bir şey yapmazlar. Xilafşər bir iş nəşət edərsə dövlət çox sıqı tutar. Amma bəzilərinin də müxtəsər bir üz örtüyü vardır. Türkiyədə muze sənətinə tərəqqi verməyə çox təlaş və səy olunur. "

Bu məktub Türkiyə inqilabından (1908) iki il öncə yazılmışdı və bu məktubla Cavid İstanbulun o vaxtkı ictimai-siyasi və mədəni həyatı haqqında məlumat verməklə yanaşı, həmçinin onun 4-5 il əvvəlki vəziyyəti ilə də tanış edir. Artıq vəziyyət əvvəlki vəziyyət deyil, İstanbul ictimai-siyasi həyatında gərginlik əmələ gəlmişdi. Belə ki, hələ XIX əsrin II yarısından fəaliyyətə başlamış gizli inqilabi təşkilatlar dövlətdə bir çaxnaşma yaratmışdır. İstanbul hərbi tibb məktəbinin kursantları tərəfindən "Osmanlı birliyi" (1889) gizli inqilabi təşkilatı yaranmışdı ki, bu təşkilatın yaranması ilə də tezliklə Türkiyənin digər yerlərində də bir neçə siyasi özəklər və 1894-cü ildə isə bu özəklərin birləşməsi nəticəsində isə "İttihad və tərəqqi" partiyası yarandı. Bu partiyanın nümayəndələri tarixə "gənc türklər" adı ilə düşdülər və gənc türklərin fəaliyyəti 1908-ci il Türkiyə inqilabı ilə nəticələndi.

Demək olar ki, Cavidin ömrünün dörd ili Türkiyənin "qaynar və mürəkkəb" bir dövrünə düşmüşdü. Ömrünün dörd ilini İstanbulun Validəxana məhəlləsində yaşadı, çünki bu məhəllədə yaşamaq onunçün əlverişli idi, ona görə ki, məktublarında da yazdığı kimi, "Validəxanada sakin olanlar həp əcəmlər, iranlılar olduğundan dövlət nəzərində o qədər mötənabeh deyil, amma tişarılarda olan arqadaşların mənzillərində bir qəzetə, yaxud istiqlala dair bərəks bir söz oxunması və qonuşulması pək mənun olub artıcaq mahalatdadır. Validəxanada iranlılıq nöqteyi-nəzərincə və qarşıda əcnəbilər sakin olduğu cəhətə, amma hər bir ehraranə qəzetlər gətirmək əcnəbi postaları təbəssütü ilə pək qolay və çox asandır".

O, İstanbulda yasayarkən çox əziyyətlər çəkmiş, daima maddi sıxıntılar içərisində yaşamışdır. Bu onun 1909-cu ildə yazdığı məktubundan da aydın hiss olunur. O yazır: "sözün ən qısası, bəndəniz şimdilik əlimdə olan 5-3 lirədən yemiyəyemiyə (daha doğrusu həftələrlə pendir əkməklə qənaət edərək) kəmali səfalətlə artıra bildiyim cüzi bir məbləğlə bir qaç ayda kəndimi idarə edə bilərəm. Yalnız burası bilinməli ki, həyatın fəlasifeyikəlbiyyun ki, yaşayışların kəlb yaşayışından təfrik olunmaz-həyatından pək fərqli deyil".

Maddi cəhətdən əziyyət çəkən Cavid hər zaman ləyaqətlə yaşamış, heç kimə əyilməmiş, burada pulla tələbə hazırlaşdıraraq özü-öz həyatını təmin etmişdir. Bu zaman Hüseyn Cavidə müəyyən təşkilatlar və maarifpərvər insanların da köməyi olmuşdur. Lakin bütün bunlara baxmayaraq, yəni özünün də yazdığı kimi, "bəndənizi cocuqluğundan bəri görmədiyim, bilmədiyim, sevmədiyim, sevəmədiyim, və sevəməyəcəyim o qorxunc, o müthiş heçliyə... (dilənçilik) deyilən o qüdüz illətə yalvarmaq istəyi. Fəqət əfsüs, həzar əfsus, bənim təbiətim, yaradılışın bütün-bütün bu illərdən qaçar, bu zillətdən qorxar. Bən hammallığı, xidmətkarlığı pək ziyadə sevərim, fəqət belə dövri hürriyyət bə zamani səadətdə bənliyimi satmaq, əsri olmaq istməm (əsr olduğumu bir şey varsa, o da həqiqət və məhəbbətdir) əsarət zəncirinə bağlanmaq o müləvvəs qeydi çəkməyə razı olmayıram. Səbəbi isə ağır yük daşımaq, məğrurанə bir minnət çəkməyə bir dürlü könlüm qani olmayır. Məhşur Kamal bəy demiş ki, (kim-sənin lütvinə olma talib, əvəzi cövhəri hürriyyətdir). Bilməm, heç ömrünüzdə özgələrə ehtiyac hissi ilə mütəhəssis oldunuzmu?" "mənliyini satmaq və əsiri olmamışdır", çünki onun əsiri olduğu şey yalnız həqiqət və məhəbbət idi.

İstanbulda yaşayarkən Cavid burada özünə "Qafqazlılardan və iranlılardan ibarət olan bir mühit yaratmışdı və bu mühitdə "mədəniyyət və hürriyyətin qızğın mübarizləri" Hacı Baba ağa, Ağa Zeynal Məmmədov, Məmmədəli Tərbiyyət, Səid Səlmasi də var idi ki, onların da Cavidə təsiri sözsüz ki, müsbət olmüşdu. O, burada olarkən mətbuat vasitəsi ilə



*Ədəbiyyat və mədəniyyət tariximizin fəxri, iftixarı, böyük ideallar şairi, türkçülük, turançılıq hərəkatının Azərbaycanda ən layiqli davamçılarından, fəlsəfi fikir əfəndisi Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində öz yeri olan və heç kimə bənzəməyən sənətkardır. Çünki c... çoxlarından fərqli olaraq Hüseyn Cavid zamanın estetik düşüncəsinə və dünya fəlsəfəsinin problemlərinə, insan-bəşər-kosmos amilinə müvafiq hərəkət edirdi. Bu mənada o, müasirləri ilə eyni parnasın ortağına, 20-ci illərin sözçüsünə bənzəmir.*

dünyada baş verən hadisələrdən xəbərdar olmüş, "Həblülmətin, "Molla Həsirəddin", "İrşad", "Pərvəriş", "Sürəyya", "Siratül-müstəqim" kimi bir çox qəzet və jurnallarla da maraqlanmışdı.

Cavid Türkiyəyə təhsil almaq üçün getmişdi. Bu barədə onun məktublarında da xeyli məlumat var. Amma o, 1906-cı ildə Hüseyn Cavid İstanbuldan Qurbanəli Şərifzadəyə yazırdı: "Bən də əvvəl həvəsləndim ki, hər işdən sərfnəzər edib, fəqət təhsillə məşğul olum. Sonra mülahizə ettim ki, bənim kəndi param bənim xaəcimi ancaq bir buçuq sənə görə bilər.Ondan sonra nerdən para bulacağam? Mütəhəyyir qaldım və boşladım.

İştə mənim əfkarım: bən, inşallah təala, əgər mümkün olursa, bütün müxtəsərpartiya ilə olan bir iş və ticarət nəzərdə qoymuşam ki, gündə altı saat vəqt itirsin, fəqət sonra həm osmanlı üsuluca, həm də fransızca kəndi qonşumdan Şeyx əfəndi ki, qabil və zabitəli və övzai rüzkarə xəbərdar bir müəllim və ədibdir, gündə üç saat kəndi əfkarınca təhsil edim. Müxtəsər, nerdə olursam, oxumaqda müsamihə etməyəcəyəm".

"İrşad" qəzeti 1906-cı il 30 avqust tarixli nömrəsində öz oxucularına belə bir məlumat verirdi: "İstanbul müxbirlərimiz yazır: İkmali təhsil üçün Bakı müsəlmanlarının ezam etdikləri zat istanbula varid oldu... Bunlardan beşi Bakıdan, biri Naxçıvandan, biri də Gəncədən göndərilmişdir."

Qulam Məmmədliyə görə Naxçıvandan göndərilən Hüseyn Cavid olmuşdur. Lakin bir başqa fakt da var ki, bu da Abdulla Şaiqin məlumatıdır. Bu məlumata görə Cavid İstanbula ticarət üçün göndərilmiş və onun göndərildiyi ticarət şirkətinin İstanbul şöbəsi iflas etdiyindən Cavid orada qalıb mükəmməl təhsil almaq istəmisdir. Birinci məktubdakı fikirləri ilə buradakı fikirlər üst-üstə düşür. "Bən də əvvəlhəvəsləndim ki,hər bir işdən sərfnəzər edib, fəqət təhsillə məşğul olum. Sonra mülahizə etdim ki, bənim kəndi param bənim xərcimi ancaq bir buçuq sənə görə bilər. Ondan sonra nerdən paran bulacağam? Mütəəssir qaldım və boşladım."Məktubdan da göründüyü kimi Mstanbula iş üçün gələn Cavid burada mükəmməl təhsil almaq fikrinə düşmüşdü.Lakin bütün bunlara baxmayaraq, yəni İstanbula hansı məqsədlə getməsindən asılı olmayaraq, Cavid İstanbulda mükəmməl təhsil almağa müvəffəq olmuş və bunun üçün ciddi səy göstərmişdir.Cavid hər zaman elmin, təhsilin vurğunu olub, özünün də dediyi kimi "şəhadətnamənin yox."

İstanbul Darülfünunda təhsil almış Cavid, hələ universitetə girməzdən əvvəl Türkiyənin məşhur filosofu Rza Tövfiqdən dərs almışdır. Darülfünunun ədəbiyyat şöbəsində təhsil alan, Osmanlı ədəbiyyatı, fars ədəbiyyatı, fəlsəfə, ədəbiyyat tarixi, coğrafiya və tarixi böyük bir həvəslə təhsil edən Cavid yazırdı: " Həftədə on dörd dərs birinci sinifdə oxuyuram, fürsəti fövt etməmək üçün yeddi dərs ikinci sinifdə davam edirəm".

Bu illərdə o, həm də türk romantizminin nümayəndələri olan Namiq Kamal, Şəmsəddin Sami, Ədülhaq Hamid, Rəcaizadə Mahmud Əkrəm, Şəhabəddin Şinasi, Məhmət Akif Ərsoyla tanış olan, onlarla yaradıcılıq əlaqəsi saxlayan Hüseyn Rasizadə belə bir mühitdə daha da dolğunlaşaraq Cavidləşirdi.

Təhsili gözəl bir şəkildə, bütün çətinliklərə baxmayaraq əzmlə davam etdirən Cavid burada həm də bədii yaradıcılığını davam etdirirdi. Belə ki, 1909-cu ildə "Siratül-müstəqim" qəzetində Hüseyn Cavidin "Son bahar", "Elmi bəşər" şerləri nəşr olunmuşdur ki, bu da şairin həm yaradıcılıqla məşğul olduğunu, həm də "həyat və cəmiyyət məsələləri" haqqında düşündüyünü göstərir. Cavidin İstanbulda olarkən yazdığı şerlərdən biri də, farsca yazdığı "Vətən" rədifli şeridir. Bu şer vətən üçün darıxan, qəribsəyən "Olubdur qəlbimə hakim mənim məlalı-vətən, başımda şur ilə məskən salıb xəyali-vətən" deyən Cavidin ürəyinin səsidir.

Vətən həsrəti çəkən Cavid 1909-cu ildə təhsilini başa vurub doğma Naxçıvanına qayıdır. Vətənə qayıdan Cavidin bir amalı var idi, vətənə xidmət etmək. "İndi əsl məqsəd vətənə xidmət, həm də layiqli xidmət etməkdir" amalı ilə, vətənə xidmət üçün vətəninə qayıdan Cavid bir müddət doğulduğu Naxçıvanda müəllimlik etmiş, buradakı "Rüşidiyyə" məktəbində dərs demişdir. Bu zaman Naxçıvanda fəaliyyət göstərən Kazım Qarabəkir paşa ilə Hüseyn Cavidin arasında çox səmimi dostluq münasibətləri olub (bunu Hüseyn Cavidin müəllimi Lətif Hüseynzadə də təsdiq edir, L.Hüseynzadə hətta K. Qarabəkir paşanın Cavidə şer həsr etdiyini də yazır).

Bir müddətdən sonra isə Cavid Tiflis, Gəncə, Bakı şəhərlərində müəllimlik edir və müəllimliklə yanaşı yaradıcılığını da davam etdirir. Onun ilk şerlər kitabı olan "Keçmiş günlər" də bu illərdə (1913) çapdan çıxır.

Türkçülük, turançılıq idealı Cavidin bütün yaradıcılığına hopur. Cavid ömrünün sonunadək harada yaşamasından asılı olmayaraq türkçü, turançı kimi yaşadı. Özünün də dediyi kimi;

***Türk oğlu sözündən dönməz,***
***Məhv olur da sürüklənməz.***
***Həp yüksəlmək dilər, enməz,***
***çarpışır, yaşar.***

Onun bu ideyaları bütün yaradıcılığında öz əksini geniş şəkildə tapır. Bu baxımdan Hüseyn Cavidin Qafqaz və Türkiyədən, habelə, İslam tarixindən mövzular alması «Ana», «Maral», «Şeyx Sənan», «İblis», «Peyğəmbər», və s. bu kimi əsərlərdə ümumtürk və ümumislam mövqeyindən öz dövründəki jəmiyyətin əxlaqi aləmini, sosial problemlərini təsvir etməsi çox təbiidir. Onun ümumtürk və ümumislam düşünjəsindən çıxış edərək yazdığı şerlərdə və pyeslərdə də bunu bariz şəkildə görürük.

**L. ƏSGƏRZADƏ**
**filologiya elmləri namizədi**




Mədəni-maarif - 9 - 2007